**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YƏHYA MƏMMƏD OĞLU BABANLI**

# AZƏRBAYCAN DİASPORUNUN DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA ROLU (1991-2011)

**İxtisas: 5503.02 - «Vətən tarixi»**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**B A K I - 2 0 1 5**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan diasporu» şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru **M.H. Seyidbəyli**

**Rəsmi opponentlər**:
Tarix üzrə elmlər doktoru **Ə.Q. Qasımov**

Tarix üzrə fəlsəfə doktoru **S.F. Ruintən**

**Aparıcı Müəssisə:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5502.01-«Ümumi tarix», 5503.02-«Vətən tarixi», 5507.01-«Beynəlxalq münasibətlər tarixi» və 5509.01-«Tarixşunaslıq, mənbəşunaslıq və tarixi tədqiqat üsulları» ixtisasları üzrə tarix elmləri doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının « 29___ » iyun 2015-ci il tarixli iclasında, saat « ___ » olacaqdır.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat « ___ » may 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**Tarix üzrə fəlsəfə doktoru C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yeni dünya nizamında elmi-texniki tərəqqi, sosial-mədəni və iqtisadi-siyasi əlaqələrin genişlənməsi dövlətlərarası münasibətlərin inkişafı üçün yeni imkanlar açmışdır. Qloballaşmanın yeni mərhələyə daxil olması ilə miqrasiya prosesləri sürətlənmiş, milli icmaların konsolidasiyası güclənmiş və diasporların rolu əhəmiyyətli dərəcədə artmağa başlamışdır. Məlumdur ki, yeni yaşayış mühitinə düşən mühacirlər öz tarixi keçmişini, milli mentalitetini, maddi-mənəvi dəyərlərini, daxili məişətini, dini etiqadını, sosial mənşəyini, demoqrafik vəziyyətini və digər əlamətlərini qoruyub saxlamaq üçün birləşməyə can atırlar. Bu məqsədlə onlar ya mövcud diasporlara qoşulur, ya da yenilərini yaradırlar. Çünki, diasporlar yaşadıqları dövlətlə mənsub olduqları tarixi vətən arasındakı körpü rolunu oynayır. "Diaspor"[1] vasitəsilə müxtəlif ölkələrdə məskunlaşan insanlar doğma yurdları ilə sıx əlaqə yaratmağa nail olurlar. Həmin şəxslər milli özünəməxsusluqlarını, dil və adət-ənənələrini yad ölkələrdə assimilyasiyadan qorumaqdan, milli monolitliyini saxlamaqdan ötrü öz aralarında etnik birliklər - diaspor təşkilatları təsis edirlər. Nəticə etibarı ilə dünyada diasporların sayı durmadan artır. Bu isə diasporun dövlətlərarası münasibətlərin inkişafında rolunu tədqiq etməyi aktuallaşdırır.

XX əsrin 80-ci illərinin II yarısında dünyada baş verən geosiyasi dəyişikliklər nəticəsində SSRİ və dünya sosializm sistemi süquta uğradı. SSRİ-nin tərkibindəki digər respublikalarla yanaşı, Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etdi. Bu isə xaricidə yaşayan azərbaycanlılara diqqət və qayğını artırmağa imkan yaratdı. "Diaspor" fenomeni Azərbaycan tarixşünaslığında da gündəmə gətirildi. Bu dövrə qədər araşdırılmamış diaspor sahəsinin vacibliyi ortaya çıxarıldı. Diaspor probleminin həm elmi-tarixi, həm də siyasi-ideoloji aspekdən tədqiq edilməsi zərurətə çevrildi. Diasporun diplomatiyanın, xarici siyasətin, beynəlxalq əlaqələrin əsas elementlərindən-aparıcı aktorlarından birinə çevrilməsi də bu sahənin Azərbaycan kontekstində tədqiq edilməsini şərtləndirən əsas amillərdən biridir. Ona görə ki, dünya dövlətləri ilə münasibətlərin milli mənafeyə uyğun qurulmasında və inkişaf

---

«Etnik və milli xarakter daşıyan «diaspor» (Qədim yunanca: διασπορά - «diaspora») termini əsasən özünün tarixi vətənini tərk etmiş və dünyanın müxtəlif yerlərinə səpələnmiş, yayılmış, dağılmış, bir sözlə, «cəlayi-vətən" olmuş, qərib, qürbətdə məskunlaşan istənilən şəxsə, millətə və etnik qrupa şamil olunur»[1].

[1] Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı: 1979, s. 237.

Şirinov Ə. Miqrasiya və Sığınacaq Məsələləri üzrə Terminlərin İzahlı Lüğəti. Bakı: 2008, s. 24.

etdirilməsində diaspor strateji məna kəsb edir. Görkəmli dövlət xadimi Heydər Əliyev diasporun milli məsələlərdə əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: «Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər».[1]

Ümummilli lider Heydər Əliyevin müəyənləşdirdiyi xarici siyasətin başlıca istiqamətlərindən biri kimi diaspor quruculuğu işinin öyrənilməsi zərurəti də tədqiqatın prioritet olduğunu sübut edir. Bu ilk növbədə dövlətimizin milli strategiyası ilə bağlıdır. Onun dövlət başçısı kimi xarici ölkələrə səfərləri zamanı orada yaşayan soydaşlarımızla görüşlərində onları ölkəmizdə baş verən mütərəqqi hadisələrdə iştiraka dəvət etməsi, eləcə də diaspor təşkilatlarının Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında fəallıq göstərməsinin də öyrənilməsi vacib əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən diaspor siyasəti Heydər Əliyevin müəyyənləşdirdiyi milli birlik və həmrəylik prinsiplərinə söykənir. Hər iki prezidentin Dünya Azərbaycanlılarının birinci, ikinci və üçüncü qurultaylarındakı çıxışlarından irəli gələn konseptual yanaşma Azərbaycan dövlətinin diaspor sahəsində siyasətinin əsasını təşkil edir. Dövlət başçısı İlham Əliyev Dünya Azərbaycanlılarının II qurultayında (mart, 2006) demişdir: «Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. ... Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək».[2]

Yer kürəsində sivilizasiyalararası toqquşmanın güclənməsi mədəniyyətlərarası dialoqun genişlənməsinə, multikulturalizmin ənənələrinin formalaşmasına, xalqların birgəyaşayışına və yad cəmiyyətlərə inteqrasiyasına böyük ehtiyac yaradır. Bu problemin, Azərbaycan kontekstində diasporun dövlətlərarası münasibətlərin inkişafında rolunu tədqiq etmək mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə qarşılıqlı əlaqələr və onların inkişaf prosesi sürətlə gedir. Mövcud vəziyyətdə diasporun rolu inkaredilməzdir. Belə ki, diaspor diplomatiyanın vacib atributuna çevrilmişdir. Bununla belə,

1 Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşr. Bakı: Çaşıoğlu, 2006, s.243.
2 Əliyev İ. Dünya Azərbaycanlılarının II qurultayında nitq. Azərbaycan qəzeti, 2006, 17 mart, № 58.

Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafında rolu elmi tədqiqat obyekti kimi hərtərəfli öyrənilməmişdir. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının müstəqillik dövründə digər sahələrlə yanaşı, diaspor sahəsində də əldə etdiyi təcrübənin öyrənilməsi və təhlilinə ehtiyac vardır. Azərbaycan Respublikasının dövlət müstəqilliyini möhkəmləndirilməsində və beynəlxalq aləmə inteqrasiyasında diaspor potensialından daha da səmərəli istifadə edilməsinin vacibliyi də tədqiqatın əhəmiyyətini göstərir.

Dissertasiyada diasporun təşəkkülü və formalaşması milli kontekstdə tədqiq edilmişdir. Diaspor anlayışı və tarixinə ümumi baxışın nəzərdən keçirilməsi, dünya diasporları ilə yanaşı, Azərbaycan icmalarının xaricdə yaranması və onun səciyyəvi xüsusiyyətlərini, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra milli diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsini araşdırmaq da son dərəcədə vacibdir.

Diasporun beynəlxalq əlaqələrə təsiri, Azərbaycan Respublikasının xarici siyasətində diaspor amilinə, Azərbaycan diasporunun müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələrinə və diaspordan lobbiçiliyə doğru təkamül prosesi nəticəsində müvafiq təşkilatların ölkəmizin dünyada təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinin araşdırılması zərurəti də dissertasiya mövzusunun aktuallığını sübut edir. Xaricdə məskunlaşmış soydaşlarımızın hüquqlarının müdafiəsi işi, onların yaşadıqları cəmiyyətlərdə Azərbaycan haqqında aydın təsəvvürün yaradılması, ölkəmizin tanıdılması və Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, Dağlıq Qarabağ münaqişəsi kimi məsələlərdə onun ədalətli mövqeyinin dəstəklənməsi və dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki fəaliyyətinin araşdırılması da xüsusi əhəmiyyətə malikdir. Məhz bu səbəblər problemin araşdırılmasını zəruri edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsindən sonrakı 20 illik tarixi dövrü əhatə edir. Problem xranoloji çərçivəsinə uyğun araşdırılmış və tədqiq edilmişdir. Bu müddət ərzində ölkəmizdə ictimai həyatın bütün sahələrində olduğu kimi diaspor quruculuğu sahəsində də mühüm uğurlar əldə edilmiş və geniş təcrübə qazanılmışdır. Bu təcrübənin ümumiləşdirilməsi tədqiqatın əsas qayəsini təşkil edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Keçmiş SSRİ-də uzun zaman «diaspor» və «lobbi» mövzusu ayrıca tədqiqat obyekti olmamışdır. Ona görə ki, xalqları «vahid sovet xalqı» adı altında birləşdirmək ideyasını təbliğ edən dövlət üçün bu mövzu bir növ yasaq sayılırdı. Hətta sovetlər dönəmində

çapdan çıxmış müvafiq sahə ensiklopediyasında, ədəbiyyatlarda bu terminin tam obyektiv izahına rast gəlmək mümkün deyildir. Müxtəlif zamanlarda diasporun formalaşma tarixi, onun yayıldığı coğrafi areal, icmaların yaranma səbəbləri, qarşılaşdığı problemlər, eləcə də sosial-mədəni sferaya təsir imkanları və ictimai-siyasi sahədəki yeri bu və ya digər dərəcədə tədqiq edilmişdir. Lakin diasporun mövcud olduğu və təmsil etdiyi xalqlarla qarşılıqlı əlaqələrdə yeri və onun dövlətlərarası münasibətlərin inkişafında rolu dərindən araşdırılmamışdır. Bir sözlə, dəqiq forma və məzmunu hələ də obyektiv tədqiqini gözləyən vacib bir problem olaraq qalır.

XX əsrin sonlarında bir sıra inkişaf etmiş dövlətlərin (Rusiya, Almaniya, Fransa, İngiltərə, ABŞ və b.) alimləri tərəfindən «diaspor» anlayışı ilə əlaqədar tədqiqatlar genişlənməyə başlandı. XX əsrin 90-cı illərindən başlayaraq post-sovet məkanında, Avropa ölkələrində və ABŞ-da diasporçuluğun, lobbiçiliyin müxtəlif aspektləri, forma və məzmunu, yaranma səbəbləri, ümumi və xüsusi cəhətlərini özündə əks etdirən bir sıra elmi əsərlər meydana çıxdı. Bu əsərlərin müəlliflərindən A.V.Konner, A.Brah, H.Karim, E.Flipp, P,Vhite, V.Safran, G.Şeffer, E.Skimmer, M.Boulder, Q.Baxtişev, M.Baxtin, N.Berdyayev, L.Danilevski, O.Toffler, P.Florenski, R.Cohen, Y.Bromley, T.Svedenburq və digərlərini göstərmək olar. Məsələn, T.Şvedenburqun «Vətəndaşların yer-dəyişməsi, diaspor və onun yayılma coğrafiyası» adlı əsəri dövlətlərin xarici siyasətində diasporun rolunu kompleks şəkildə öyrənilməsində çox önəmli mənbə hesab oluna bilər. SSRİ-nin süqutundan sonra post-sovet ölkələrinin alimlərinin tədqiqatlarında bu mövzu önəmli yer tutmağa başladı. MDB məkanında miqrasiya, diaspor və lobbiçiliyin dövlətlərarası münasibətlərin inkişafında roluna dair T.Poloskova, V.Tişkov, N.Lebedeva, V.Şnirelman U.Safran, Y.Platonov, Z.Levin, F.Vişneviski, V.Dyatlov [1] kimi müəlliflərin

---

[1] Полоскова Т. В Диаспоры в систем международный связей. Автореферат доктора политических наук. М., 1998, 199 с.; Полоскова Т. Современные диаспоры: внутриполитические и международные аспекты. М., Научная книга, 1999, 252 с.; Полоскова Т. Диаспора: фактор конфликта или сближения? «Дружба Народов», 2000, №3, с. 152-169; Полоскова Т.В. Диаспоры и внешняя политика. //Международная жизнь. 1999, № 11, 71 с.; Тишков В.А. Исторический феномен диаспоры //Этнографическое обозрение. 2000, №2, с. 2-13; Попков В. Феномен этнических диаспор. М., Наука, 2003, 340 с.; Тишков В. Исторический феномен диаспоры // «Этнографическое обозрение» // 2000, №2, 45-53; Тишков В. Миграция и новые диаспоры в постсоветских государствах. М., Наука, 1996, 118 с.; Лебедева Н.М. Новая русская диаспора: социально-психологический анализ. М., Наука, 1995, 172 с.; Сафран У. Сравнительныц анализ диаспор. Размышления о книге Рабина Коэна «Мировые диаспоры // Диаспоры, 2004, №4, 141; Левин З. Менталитет диаспоры, М., İNMA-RRLS, 2001, 170 с.; Дятлов В. Диаспора: экспансия термина в общественную практику современной России // Диаспоры. 2004. №3. С. 126- 138; Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор // «Общественные науки и современность». 2000, № 3. с. 115 - 130.

dəyərli tədqiqatları tədqiq etdiyimiz mövzunun ayrı-ayrı məsələlərinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Son dövrlərdə Rusiya Federasiyasında işıq üzü görmüş bir sıra fundamental kollektiv monoqrafiyalarda, ayrı-ayrı məqalələr və saytlarda diasporların (lobbilərin) dövlətlərarası münasibətlərdə yeri və rolu və s. məsələlər öz əksini tapmışdır.[1]

Hazırda Türkiyə tarixşunaslığında da diaspor quruculuğu probleminin tədqiqinə geniş yer verilir. Bu sahəyə dair əsərlər həsr edilir. Bu baxımdan, K. Şenolun «Ermeni Lobisi: ABD'de Ermeni Diasporasının Oluşması ve Lobi Faaliyetleri»[2], A.Tayyarın «Amerikada siyasi quruluş, lobbilər və xarici siyasət»[3] və A.D.Dindarın «Yaponiya türk-tatar diasporası»[4] əsərləri maraq doğurur. Hər üç müəllif diasporların yerli siyasi proseslərdə fəal iştirakını vurğulayırlar. İndiki zamanda ikitərəfli və çoxtərəfli əməkdaşlıqda diasporların böyük rol oynadığını qeyd edirlər.

XX əsrin 90-cı illərindən başlayaraq, Azərbaycan alimləri də bu problemlərlə bağlı maraqlı tədqiqatlar aparmağa başlamışlar. A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, t.ü.e.d., professor Y.M.Mahmudovun və həmin İnstitutun «Azərbaycan diasporu» şöbəsinin müdiri, t.ü.e.d. M.H.Seyidbəylinin birgə elmi redaktorluğu ilə buraxılmış «Azərbaycan diasporu: tarix və nəzəriyyə»[5] və Y.Mahmudovun redaktorluğu altında çap olunmuş «Dünya Azərbaycanlıları: tarix və müasirlik»[6] adlı kitabları bu sahənin öyrənilməsinə layiqli töhfədir.

Akademik R.Mehdiyevin «Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə»[7] adlı monoqrafiyasında millətlərarası münasibətlərin nəzəriyyə və siyasət məsələləri nəzərdən keçirilmiş və göstərilmişdi ki, xarici siyasətdə müdafiə

---

[1] Международный опыт защиты соотечественников за рубежом. Мировая и отечественная практика. М., Классикс стиль, 2003, с.125; Международный опыт институционального оформления отношения между государством и национальной диаспорой за рубежом. //www/noravank.am/ru/; Соловьев В.А. Ближновосточный жандарм. МО., 1983, с.127; Стратегия развития диаспоры // НГ-Содружество, 1998, №5; Татарская диаспора в Азербайджане. //www.tatar.ru/; Туркменско-израильские отношения: История и совроменность //www. neast.ru/.

[2] Şenol K. Ermeni Lobisi: ABD'de Ermeni Diasporasının Oluşması ve Lobi Faaliyetleri. http://www.eraren.org/index.php?Page=DergiIcerik&IcerikNo=203

[3] Tayyar A. Amerikanın siyasi yapısı: Lobiler ve Diş politika. İstanbul. Alfa Yay., 2000, ISBN 9758052683.

[4] Ali Merthan Dindar: Yaponiya türk-tatar diasporası. //www/boxca/com/

[5] Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu: // red. Y.Mahmudov, elmi red. M.Seyidbəyli // Bakı: Astroliqraf LTD, 2005, 89 s.

[6] Dünya Azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. I Buraxılış, Y.Mahmudovun redaktəsi ilə. Bakı: BDU, 2003, 155. s.

[7] Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə, Bakı: XIX YNE, 2006, I c., 671 s.

konsepsiyasından hücum konsepsiyasına keçmək, ölkə üçün əhəmiyyətli olan bir sıra məsələlərə və problemlərə beynəlxalq təşkilatların biganəliyini aradan qaldırmaq vacibdir. Müəllif göstərir ki, ölkənin mənafeyi daim diaspor quruculuğu, lobbi fəaliyyəti və milli məsələlər ətrafında birləşməlidir.

T.ü.e.d., professor Ə.Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» [1] adlı əsəri də diaspor quruculuğunun mahiyyəti və əhəmiyyətinin tədqiqində mühüm rola malikdir. Müəllif kitabda haqlı olaraq qeyd edir ki, Azərbaycanda diaspor quruculuğu sahəsində məqsədyönlü işin aparılması Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bağlıdır. Hazırda bu siyasi xətti Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi layiqincə davam etdirir.

V.Həbiboğlunun «Heydər Əliyev və Azərbaycan diasporu» [2] monoqrafiyasında araşdırılan problemin bir sıra aspektlərinə toxunulsa da, tədqiq etdiyimiz mövzu tam şəkildə öz əksini tapmamışdır.

V.Arzumanlının adı Azərbaycan diaspor quruculuğunu araşdıran alimlər içərisində xüsusilə qeyd olunmalıdır. Onun «Azərbaycan diasporu» [3] (Bakı, 2001) adlı kitabında milli diasporun aktual problemləri nəzərdən keçirilmiş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın sosial-mədəni, ictimai-siyasi həyatı barədə maraqlı məlumatlar verilmişdi. Əsərin girişində dünya azərbaycanlılarının XX əsr tarixinə qısaca nəzər salınmışdı. «Dünyaya səpələnmiş soydaşlarımız» adlanan birinci fəsildə Azərbaycan diasporunun fəaliyyət üfüqlərindən bəhs edilmiş, Rusiya Federasiyası və MDB-yə üzv digər dövlətlərdə, eləcə də Avropa ölkələri, Türkiyə, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiyada mövcud olan Azərbaycan diasporlarının fəaliyyəti işıqlandırılmış, dünya azərbaycanlılarının birliyinin yeni mərhələsi haqqında, Dünya Azərbaycanlıları Konqresinin, Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyasının, Ümumrusiya Azərbaycanlıları Konqresinin və Ukrayna Azərbaycanlıları Konqresinin fəaliyyətindən geniş məlumat verilmişdi. Dünya Azərbaycanlılarının birliyi və həmrəyliyi naminə görülən işlərdən bəhs edən bu əsər Azərbaycan diasporunun tarixinin öyrənilməsi baxımından qiymətli mənbədir. Lakin monoqrafiyada da məsələlər ümumi şəkildə işıqlandırılmış, araşdırdığımız problem konkret tədqiqat mövzusu kimi işlənilməmişdir.

T.ü.e.d. M.Seyidbəyli Azərbaycan diasporunun tarixi, coğrafiyası və demoqrafiyası ilə bağı fundamental araşdırmalar aparmışdır. Onun rus dilində

---

[1] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.

[2] Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 358 s.

[3] Arzumanlı V. Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 800 s.

çapdan çıxmış «Rusiyada Azərbaycan diasporu: xüsusiyyətlər və tendensiyalar, formalaşma və inkişaf (1988-2007-ci illər)»[1] adlı monoqrafiyası azərbaycanlıların sıx məskunlaşdığı Rusiya Federasiyasında milli diasporun fəaliyyətini öyrənməkdə ən yaxşı mənbələrdən biri kimi mühüm əhəmiyyətə malikdir. Əsərdə miqrasiya proseslərinin Azərbaycan diasporunun formalaşmasında əsas rol oynamasından, miqrasiya proseslərinin yeni mərhələsindən, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Sovet dövründə milli diasporun vəziyyətindən bəhs edilmişdi. Müəllif SSRİ-nin dağılması ərəfəsində və Azərbaycanın müstəqillik əldə etməsindən sonra ölkədəki ictimai-siyasi və sosial-iqtisadi şəraitdən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsindən, Rusiyaya azərbaycanlıların miqrasiyasından və Rusiyadakı Azərbaycan icmasından geniş məlumat verməklə, bu məsələləri ətraflı təhlil etmişdir. Bütün bunlarla bərabər, monoqrafiyada Azərbaycan diasporunun daha çox Rusiya Federasiyasındakı fəaliyyətinə geniş yer verilmiş və digər ölkələrdəki milli diasporun fəaliyyəti isə kifayət qədər araşdırılmamışdır.

T.ü.e.d., professor M.Qasımlının «Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər)» (Bakı, 2006) [2] adlı monoqrafiyasında xaricdə yaşayan həmvətənlərlə əlaqənin saxlanılması kimi məsələlər şərh edilmişdir.

Tədqiqatçı alim Z.Əliyevin «Beynəlxalq münasibətlərdə diasporların rolu», «Dünya diasporları», «Türkdilli xalqların diasporları», «Diaspor: izahlı sözlük və məlumat kitabı» adlı kitablarında [3] diasporçuluğun bir sıra prinsipial məsələləri öz əksini tapmışdır. N.Rizvanın «Azərbaycan diaspor tarixindən» [4] adlı arxiv sənədlərinə söykənən kitabında və G.Novruzovanın «Rusiya Federasiyasında Azərbaycan diasporu: tarixi-demoqrafiya problemləri (1989-2000-ci illər)» [5] adlı əsərində də tədqiq etdiyimiz problemin müəyyən cəhətlərinə toxunulmuşdur. Tədqiqat zamanı X.İbrahimlinin «Azərbaycan siyasi mühacirəti» [6], A.Tahirlinin «Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri» [7] əsərlərinə də müraciət olunmuşdur. A.Həşimovanın

---

[1] Сеидбейли М. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития. Баку: Элм, 2009, 396 с.

[2] Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol. Bakı: BDU, 2006, 606 s.

[3] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, 150 s.

[4] Rizvan N. Azərbaycan diasporası tarixindən: I cild. Bakı: Borçalı NPM, 2002, 208 s.

[5] Новрузова Г.Т. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг). Автореферат диссертации на соискание ученой степени доктора философии по историческим наукам. Баку: 2010, 28 с.

[6] İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm və təhsil, 2012, 371 s.

[7] Tahirli A. Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri. Bakı: Tural-Ə NPM, 2001, 344 s.

«XX əsrin I yarısında Azərbaycan mühacirəti» əsərində də problemlə bağlı bir çox maraqlı məlumatlara rast gəlirik.[1]

Araşdırma apardığımız zaman müxtəlif ölkələrdə Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı internet resurslarından da istifadə etməyə çalışmışıq. Onlardakı milli diasporun çoxcəhətli fəaliyyətini işıqlandıran zəngin materiallar tədqiqat işinin yazılmasında mühüm rol oynamışdır.[2] Bu sətirlərin müəllifinin ölkənin bir sıra mətbuat orqanlarında diaspor ilə bağlı məqalələri[3] işıq üzü görmüşdür.

Bütün bunlarla baxmayaraq, diasporun fəaliyyət prinsipləri, Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafında rolu sistemli şəkildə bu vaxta qədər bütövlükdə araşdırılmamışdır. Bu baxımdan təqdim etdiyimiz tədqiqat işi qeyd olunan mövzuda müqayisəli təhlil, tarixi nöqteyi-nəzərdən kompleks yanaşma metodu ilə işlənmiş ilk dissertasiya hesab oluna bilər. Dissertasiyada diaspor amili milli və bəşəri aspektlərdən təhlil edilmiş, Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafı kontekstində müqayisəli şəkildə və geniş faktlar əsasında tədqiq edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Tədqiqatın mənbəşünaslıq bazasını ilk növbədə 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əliyevin və 2003-cü ildən Prezident İlham Əliyevin diaspor quruculuğu ilə əlaqədar imaladığı qərarlar, imzaladığı fərman və sərəncamlar təşkil edir. Bu qrupa dair sənədlər hər iki dövlət başçısının nitqləri, çıxışları, müsahibələri və bəyanatlarından ibarət külliyyatlarında,[4] eləcə də Azərbaycan diasporu haqqında hazırlanmış ayrı-ayrı toplularda[5] öz əksini tapmışdır.

O cümlədən, mühüm mənbələr qrupuna xaricdə yaşayan soydaşlarımızla əlaqədar Azərbaycan Respublikasının rəsmi dövlət sənədləri, Diasporla İş üzrə

---

[1] Həşimova A. XX əsrin I yarısında Azərbaycan mühacirəti, Bakı: 1992, 169 s.

[2] Almaniyada Azərbaycan diasporu. //zaur.azeriblog.com/; Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı //www.diaspora.gov.az/

[3] Babanlı Y. Azərbaycançılıq ideyası azərbaycanlıların milli birliyinin təminatçısıdır. Palitra, 2010, 4 may. № 47. s.5.

[4] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Çoxçildlik. Bakı: Azərbaycan, 1997-2013-cü illər; Əliyev İ. Dünya Azərbaycanlılarının III qurultayında nitq. Azərbaycan, 2006, 16 mart, № 58

[5] Azərbaycan diasporuna dövlət qayğısı / Heydər Əliyevin çıxışları. Bakı: Çaşıoğlu, 2003, 301 s.; Azərbaycan diasporu və milli mətbuat. Bakı: Çaşıoğlu, 2004, 125 s.; Azərbaycan diasporu: böyük yolun başlanğıcı // tərtib edən N.Qurbanov və b.// Azərb. Respub. Dias. İş Üzrə Döv. Komitəsi. Bakı: Çaşıoğlu, 2006, 208 s.; Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ / tərtibçi N.Qurbanov və başqaları // Bakı: Çaşıoğlu, 2006, S. 171; Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşr. Bakı: Çaşıoğlu, 2006, 301 s.; Azərbaycan diasporuna dövlət qayğısı / tərtibçi N.Qurbanov, E.Miraləm / Bakı: Adiloğlu, 2009, 284 s.; Azərbaycan diaspor-Ensiklopedik məlumatlar toplusu. Bakı: 2012; Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı //www.diaspora.gov.az/.

Dövlət Komitəsinin (DİDK) materialları, nəşrləri, təklif və tövsiyələri daxildir. [1] 2001, 2006, 2011-ci illərdə Bakı şəhərində keçirilmiş dünya azərbaycanlılarının birinci, ikinci və üçüncü qurultaylarının materialları, DİDK-nin sənədləri də tədqiqatın mühüm mənbəşünaslıq bazasını təşkil edir.[2] Bununla yanaşı, xaricidəki Azərbaycan icmalarının, diaspor təşkilatlarının fəaliyyətləri ilə bağlı materiallar, habelə dövrü mətbuatda dərc olunmuş statistik məlumatlar, internet saytları da mənbə kimi faydalanmağa çalışmışıq.

Mövzu tədqiq edilərkən beynəlxalq və yerli səviyyəli nüfuzlu dövri mətbuat orqanlarının məlumatlarından, diaspor, lobbi, miqrasiya məsələləri ilə məşğul olan dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının sənədlərindən və bu sahəni özündə əks etdirən digər materiallardan əsas mənbə bazası kimi istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafındakı rolu (1991-2011) dissertasiya işinin obyektini təşkil edir. Azərbaycan diasporunun təşəkkülü və inkişafı, diaspor anlayışına və yaranması tarixinə ümumi baxışı, Azərbaycan icmalarının xarici dövlətlərdə yaranması və səciyyəvi xüsusiyyətləri, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi, Diasporun beynəlxalq əlaqələrə təsiri, Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili, Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələri və diaspordan lobbiçiliyə doğru tərəqqi prosesində Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı

---

[1] Azərbaycan diasporu - Ensiklopedik məlumatlar toplusu. Bakı: 2012, 654 s.; Xaricdə yaşayan azərbaycanlılar üçün yaddaş //məlumat kitabı/, Bakı: Adiloğlu, 2009, 440 s.; Azərbaycan diasporuna dövlət qayğısı / tərtibçi N.Qurbanov, E.Miraləm / Bakı: Adiloğlu, 2009, 284 s.; Azərbaycan diasporu: böyük yolun başlanğıcı // tərtib edən N.Qurbanov və b.// Azərbərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi. Bakı: Çaşıoğlu, 2006, 208 s.; Azərbaycan diasporuna dövlət dövlət qayğısı. Müasir mərhələ / tərtibçi N.Qurbanov və başqaları // Bakı: Çaşıoğlu, 2006, 171 s.; Azərbaycan diasporuna dövlət qayğısı. İkinci nəşr. Bakı: Çaşıoğlu, 2006, 301 s.; Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi sahəsində görülmüş işlər haqqında məlumat. Bakı: Yurd NPB, 2006, 62 s.; Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu: // red. Y.Mahmudov, elmi red. M.Seyidbəyli // Bakı: Astroliqraf LTD, 2005, 89 s.; Azərbaycan diasporuna dövlət qayğısı / Heydər Əliyevin çıxışları. Bakı: Çaşıoğlu, 2003, 301 s.; Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin illik hesabatları; Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Müxtəlif illərə dair hesabatları; Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı //www.diaspora.gov.az/; Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni təşkilatları: sorğu kitabçası / tərt. M. Talıblı, A. Fərzəliyev. Bakı: Azərbaycan nəşriyyatı, 2001, 70 s.;

[2] Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: Azərbaycan nəşriyyatı., 2002, 122 s.; Dünya Azərbaycanlılarının II Qurultayı. Bakı: Çaşıoğlu., 2006, 192 s.

mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinin öyrənməsi məsələləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin araşdırılmasının əsas məqsədi Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafında rolunun düzgün elmi mənzərəsini yaratmaqdır. Qarşıya qoyulan məqsədin həlli ilə bağlı aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd olunmuşdur:

**Birincisi, Azərbaycan diasporunun təşəkkülü və formalaşması**:

Diaspor anlayışına və tarixinə ümumi baxışın öyrənilməsi;

Azərbaycan icmalarının xaricdə yaranması və onların səciyyəvi xüsusiyyətlərinin aşkara çıxarılması;

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsinin araşdırılması;

**İkincisi, Diasporun beynəlxalq əlaqələrə təsiri:**

Azərbaycan Respublikasının xarici siyasətində diaspor amilinin nəzərdən keçirilməsi;

Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələrinə diqqət yetirilməsi;

Diaspordan lobbiçiliyə doğru prosesdə Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinin yeni elmi metodunun yaranmasının vacibliyinin faktlarla əsaslandırılması.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat işinin metodoloji əsasını etnosla bağlılığını saxlayan diasporun mahiyyəti, forması, məzmunu və dövlətlərarası münasibətlərin inkişafında rolunu tədqiq etmək, diplomatiyaya, xarici siyasətə, ümumilikdə beynəlxalq əlaqələrə təsiri haqqında müasir elmdə qəbul edilmiş tarixi, fəlsəfi, sosial və siyasi ideyalar kompleksi təşkil edir. Dissertasiya rasional metodlar bazasında strukturlaşan metodologiya əsasında yazılmışdır. Tədqiqatın aparılmasında müqayisəli, sistemli yanaşma, özündə funksionalizm və strukturalizmi birləşdirən sinxron metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini ilk növbədə problemin qoyuluşu müəyyən edir. «Diaspor» anlayışı XX əsrin II yarısından dünya tarixşünaslığında özünəməxsus yer tutmaqla başlamışdır. Qərb ölkələrinin, Amerika və Rusiyanın tarixşünaslığı ilə müqayisədə bu problem Azərbaycanın tarixşünaslıq elmində nisbətən yeni sahədir.

Problem dünyanın bir sıra ölkələrinin elmi tədqiqatlarında lazımi səviyyədə işıqlandırılsa da, Azərbaycanda müəlliflərin araşdırmalarında tam

şəkildə öz həllini tapmamışdı. Yalnız ötən əsrin 90-cı illərindən Azərbaycan tarixşünaslığı müstəqil inkişaf yoluna qədəm qoyduqdan sonra «diaspor» məsələsi tədqiqat obyektinə çevrilmişdi. Bu sahədə ümumi məzmunlu mənbələr, kiçik həcmli məqalələr istisna olunmaqla, iri həcmli, konkret istiqamətli tədqiqat işləri hələlik geniş miqyas almamışdır.

Məhz Azərbaycan diasporun dövlətlərarası münasibətlərin inkişafındakı rolu üzrə işin sistemi tədqiqatın əsas elmi yeniliyidir. Dissertasiyanın elmi yeniliyi aşağıdakı məsələlərin qoyuluşunda öz əksini tapmışdır:

**Birincisi,** Azərbaycan diasporunun təşəkkülü və formalaşması dərindən tədqiq edilmiş, diaspor anlayışına və tarixinə ümumi baxış ətraflı öyrənilmiş, Azərbaycan icmalarının xaricdə yaranması və onların səciyyəvi xüsusiyyətləri aşkara çıxarılmış, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi əsaslı şəkildə araşdırılmışdır.

**İkincisi,** diasporun beynəlxalq əlaqələrə təsiri işıqlandırılmış, Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili nəzərdən keçirilmiş, Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələri kompleks halda öyrənilmiş və diaspordan lobbiçiliyə doğru prosesdə Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətinə dair bir sıra təkliflər və tövsiyələr verilmişdir.

**Üçünçüsü,** bu mövzu tarix elmində ilk dəfə olaraq Azərbaycan materialları əsasında tarixi baxımdan kompleks şəkildə tədqiq və təhlil edilmişdir. Buna görə də əldə olunan nəticələr Azərbaycan diasporunun inkişafına istiqamət verən kompas hesab edilməlidir. Azərbaycan Respublikasının müstəqillik dövründə qazandığı uğurlara və Heydər Əliyevin xarici siyasət strategiyasında diaspor amili məsələsinə xüsusi diqqət yetirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işindən dünya ölkələrinin və Azərbaycan diasporunun qısa tarixi, yayılma arealı və demoqrafik vəziyyətinin öyrənilməsinə dair elmi-tədqiqat işlərinin yazılmasında, bu sahə üzrə bakalavr və magistr kurslarının təşkilində, dərsliklərin, dərs və metodiki vəsaitlərin hazırlanmasında istifadə edilə bilər. Həmçinin, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin daha da gücləndirilməsi prosesində, eləcə də kütləvi informasiya vasitələrinin hazırladığı xüsusi layihələrdə dissertasiyanın nəticələrindən istifadə olunması səmərə verə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan diasporu» şöbəsində yerinə yetirilmiş, orada müzakirə olunmuş və müdafiə şurasına təqdim edilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat işinin aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi, mövzunun öyrənilmə səviyyəsi, tədqiqatın mənbə bazası, obyekti və predmeti, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu göstərilmişdir.

Dissertasiyanın birinci fəsli **«Azərbaycan diasporunun təşəkkülü və formalaşması»** adlanır. Bu fəslin birinci yarımfəslində «Diaspor anlayışına və yaranması tarixinə ümumi baxış» nəzərdən keçirilib və bu terminin definisiyaları təhlil olunubdur. İşdə bu fenomenin müxtəlif səbəblərə görə öz vətənlərindən kənarda yaşamış, köçürülmüş xalqlara aid olduğu qeyd edilmişdir. Göstərilmişdir ki, diaspor etnik qruplardan fərqli olaraq özündə həm sosial-mədəni spesifikası ilə yanaşı, həm də ictimai-siyasi məzmun daşıyır. Hazırda diaspor ictimai-siyasi nöqteyi-nəzərdən dövlətlərarası münasibətlərin inkişafında rolu olan və xalqlararası sosial-mədəni əməkdaşlığa düzən verən, əlaqələndirici missiya daşıyan və imic yaradan bir amildir. Diasporun yaranması, fəaliyyəti üçün etnik qrupun və xalqın tarixi vətəninin olması vacib şərtlərdən biridir.

Birinci fəslin ikinci yarımfəsildə «Azərbaycan icmalarının xaricdə yaranması və səciyyəvi xüsusiyyətləri» aşkara çıxarılmışdı. Azərbaycan dövlətçiliyinin çoxəsrlik tarixinə, xalqımızın dünyanın müxtəlif ölkələrində səpələnməsinə və məskunlaşmasına baxmayaraq, bu problemlə bağlı məsələlər hərtərəfli öyrənilməmiş və milli dövlətçilik maraqlarının təmin edilməsində onun imkanları lazımınca dəyərləndirilməmişdir. Dünyada sayı təqribən 50 milyon olan azərbaycanlıların 10 milyondan çoxu hazırda tarixi vətənlərindən kənarda yaşayır. Azərbaycanın coğrafi mövqeyi, iqtisadi potensialı bu ərazi qədim zamanlardan müxtəlif insanların axınlarının, məskunlaşmalarının, müharibələrin məkanına çevirmişdir. Tarixi mənbələrə əsasən Azərbaycan diasporunun formalaşması prosesinin VII əsrin sonu - VIII əsrin əvvəllərindən başlandığını söyləmək olar. Azərbaycan Ərəb xilafətinin tərkibinə daxil olduqdan sonra xalqımız islam sivilizasiyasının, mədəniyyətinin təşəkkül

tapmasında və inkişafında mühüm rol oynamışdı. Həmin dövrdən başlayaraq, Azərbaycana müxtəlif xalqların yürüşləri burada etnik mənzərənin ciddi surətdə dəyişməsinə səbəb olmuşdu. Baş verən ictimai-siyasi proseslər və sosial-iqtisadi vəziyyət azərbaycanlıların bir qismini də yaxın, uzaq ərazilərə miqrasiyasına səbəb olmuş, müxtəlif ölkələrdə Azərbaycan mənşəli etnik-milli icmaların yaranmasına gətirib çıxarmışdır.

XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyasına ilhaq edilməsi, çarizmin müstəmləkə və ayrı-seçkilik siyasəti azərbaycanlıların öz doğma vətənlərindən kütləvi miqrasiyasının yeni mərhələsini yaratmışdı. Bu dövrdən etibarən azərbaycanlılar digər ölkələrlə yanaşı, Rusiya imperiyasının ərazilərində də məskunlaşmağa başladılar. Həmin proses azərbaycanlılar arasında görkəmli elm, mədəniyyət, ictimai, hərbi və dövlət xadimlərinin yetişməsinə də şərait yaratmış, mənşəcə azərbaycanlı olan bu şəxsiyyətlər Rusiyanın inkişafına əvəzsiz töhfələr vermişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə də məcburi miqrasiya baş vermişdir. Bu proses Azərbaycan diasporunun yeni mərhələsinin, eləcə də azərbaycanlıların siyasi mühacirətinin əsasını qoymuşdur. Miqrasiya etmiş azərbaycanlıların əksəriyyəti İranda, Türkiyədə, bir sıra Qərbi Avropa ölkələrində və ABŞ-da məskunlaşmışdılar. Burada onlar Azərbaycan milli şüurunun yaşamasında və milli istiqlal düşüncəsinin gələcək nəsillərə ötürülməsində əvəzsiz xidmətlər göstərmişdilər.

İkinci Dünya müharibəsində almanlara əsir düşmüş və geriyə qayıda bilməyən azərbaycanlı əsirlərdən ibarət icmaların yaranması diasporun formalaşmasının növbəti mərhələsi kimi səciyyələndirilə bilərdi. Onların əksəriyyəti Türkiyə, Almaniya, Fransa, ABŞ və digər ölkələrdə məskunlaşmışdılar.

Müharibədən sonra Sovet İttifaqında respublikalararası inteqrasiya proseslərinin güclənməsi, azərbaycanlı gənclərin kütləvi şəkildə iş və təhsil almaq üçün Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və digər müttəfiq respublikalara axını burada çoxsaylı azərbaycanlı diasporun formalaşmasına gətirib çıxarmışdı. Xüsusilə, Heydər Əliyevin Azərbaycan Respublikasına birinci siyasi rəhbərliyi (1969-1982) dövründə onun bilavasitə təşəbbüsü ilə azərbaycanlı gənclərin SSRİ-nin qabaqcıl ali məktəblərində respublikamız üçün zəruri ixtisaslar üzrə təhsil almağa göndərilməsi ölkəmizin elmi, intellektual potensialının inkişafına müsbət təsir göstərməklə yanaşı, müttəfiq respublikalarda (hazırki müstəqil dövlətlərdə) Azərbaycan diasporunun ziyalılarının, yeni intellektual nəsilin hesabına güclənməsinə səbəb olmuşdu. Həmin insanların əksəriyyəti Azərbaycana qayıtsalar da, bir

qismi təhsil aldıqları şəhərlərdə məskunlaşmışdılar. Bu dövrdə Sovet rejiminin sərt siyasi-ideoloji məhdudiyyətlərinə baxmayaraq, Heydər Əliyev xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələri inkişaf etməyə başlamışdı. Onun təşəbbüsüilə Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyətinin («Vətən» Cəmiyyətinin) yaradılması soydaşlarımızın birliyinə və vətənlə əlaqələrinin güclənməsinə xidmət edirdi.

Nəhayət, Azərbaycan müstəqillik qazandıqdan sonra milli diasporun inkişafında yeni-beşinci mərhələdə başlanmışdı ki, bu mərhələ dünyada gedən qloballaşma və miqrasiya prosesləri ilə sıx əlaqədar idi.

Məlum olduğu kimi, xaricdə yaşayan soydaşlarımızın əksəriyyətini Cənubi Azərbaycandan gələnlər təşkil edir. Tarixin müxtəlif mərhələlərində İranda baş verən ictimai-siyasi hadisələr nəticəsində buradan on minlərlə azərbaycanlı Qərb ölkələrinə axın etmiş və bu Azərbaycan diasporunun daha da genişlənməsinə səbəb olmuşdu.

Birinci fəsildə Azərbaycan diasporunun müxtəlif ölkələrdə, Türkiyə Respublikası, Almaniya Federativ Respublikası, Rusiya Federasiyası və ABŞ kimi dövlətlərdə məskunlaşması coğrafiyası da ətraflı təhlil olunmuşdu.

Azərbaycanlıların Türkiyədə məskunlaşmasının qədim tarixi kökləri olsa da, bu proses Rusiya Cənubi Qafqazı işğal etdikdən sonra intensiv xarakter daşıyırdı. Bu ölkəyə siyasi mühacirət isə AXC-nin süqutundan sonra olmuşdu. Nəticədə, Azərbaycanın güclü diasporu bu dost ölkədə fəaliyyət göstərməyə başlamışdı. Hazırda hər iki xalqın diaspor təşkilatları ümumi mənafelər naminə birgə fəaliyyət göstərirlər.

Azərbaycan diasporunun Avropada məskunlaşma tarixi Almaniyada uzaq keçmişə, erkən orta əsrlərə gedib çıxır. Burada Azərbaycan milli hərəkatının bir çox nümayəndələrinin təhsil almaları, AXC-nin süqutundan sonra isə məskunlaşmaları azərbaycanlılardan ibarət icmaların yaranması prosesinə müsbət təsir göstərmişdi. İkinci Dünya müharibəsi zamanı siyasi mühacirlərin, heç də birmənalı qarşılanmayan bu ölkədəki hərbi legionların diasporçuluq fəaliyyəti, müharibədən sonra isə burada Azərbaycan cəmiyyətlərinin yaranması Almaniyada Azərbaycan diasporunun kifayət qədər tarixi təcrübəyə malik olduğunu göstərirdi. Araşdırma aparılan illərdə Almaniyada yaşayan azərbaycanlılar həm Cənubi, həm də Şimali Azərbaycanı təmsil edirdilər.[1] Bu ölkənin müxtəlif şəhərlərində çox fəal diaspor təşkilatları fəaliyyət göstərirdi.

[1] Əliyev Z. Türkdilli xalqların diasporları. Bakı: Adiloğlu., 2009, 110 s.

Tədqiqat işində qeyd olunur ki, Azərbaycan diasporunun çoxsaylı və genişmiqyaslı fəaliyyət göstərdiyi yerlərdən biri də Rusiya Federasiyasıdır. 2002-ci il siyahıyaalınmalarının nəticələrinə görə bu ölkədə 621.840 azərbaycanlı yaşayırdı. [1] Qeyri-rəsmi statistikada isə bu rəqəm 3 milyon göstərilir. Rusiyada Azərbaycan diasporunun formalaşmasını 4 dövrə: (1828-1918-ci illər; 1920-1960-cı illər; 1960-1980-ci illər və SSRİ-nin süqutundan sonrakı dövr;) bölmək olardı. Bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatları (Ocaq» Mədəniyyət Cəmiyyəti, «AzərRos (Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti)», «Ümumrusiya Azərbaycan Konqresi», «Rusiya Azərbaycanlı Gənclər Təşkilatı»), mətbu orqanlar, mədəni mərkəzlər, fondlar, burada məskunlaşmış nüfuzlu azərbaycanlılar Azərbaycan-Rusiya münasibətlərinin inkişafında mühüm rol oynamışdır.

Tədqiq edilən dövrdə Azərbaycan Respublikası suverenlik qazandıqdan sonra ictimai-siyasi və sosial-iqtisadi səbəblər üzündən mühacirət edənlərin istiqaməti Qərb ölkələri ilə yanaşı, ABŞ-a da yönəlmişdi. Müstəqillik illərində dövlət səviyyəsində digər ölkələrdəki kimi Amerikadakı Azərbaycan diasporuna da dəstək artmağa başlamışdı. Nəticədə okeanın o tayında, milli diasporun fəaliyyəti daim təkmilləşmiş və əhatə dairəsi genişlənmişdi. Burada fəaliyyət göstərən təşkilatlar, xüsusilə də birinci nəsil amerikalı azərbaycanlılar tərəfindən yaradılan «Azərbaycan-Amerika Cəmiyyəti» milli diasporun, lobbinin və Azərbaycan-Amerika dövlətlərarası münasibətlərinin inkişafına xidmət edirlər.

Birinci fəslin üçüncü yarımfəslində «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası: diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi» məsələləri tədqiqata cəlb edilib. Tədqiqat işində ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci siyasi rəhbərliyi (1993-2003) dövründə milli diasporun formalaşmasında və inkişafında qazanılmış təcrübə ümumiləşdirilmişdir. Onun xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması üçün gördüyü işlər işıqlandırılmışdır. Hələ Azərbaycan Respublikası Naxçıvan MR Ali Məclisinin sədri olduğu vaxt «31 dekabr»ın dünya azərbaycanlılarının milli birlik və həmrəylik günü kimi qeyd edilməsi ilə bağlı atdığı addımlar və banisi olduğu «Azərbaycançılıq» məfkurəsinin əhəmiyyəti tədqiqatda dərindən təhlil edilmişdir. Azərbaycan Respublikası Prezidenti kimi Heydər Əliyevin milli diasporun təşkilatlanması

[1] Национальный состав Населения РФ по итогом переписи поселения 2002 годаю. М: Книга 1, том 4, с.6.

sahəsində gördüyü işlər, o cümlədən, 2001-ci ilin noyabrında Dünya azərbaycanlılarının birinci qurultayının keçirilməsi, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması (5 iyun 2002-ci il), «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun (21 fevral 2003-cü il) qəbul edilməsi və s. tədbirlər sayəsində Bakı şəhəri Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini koordinasiya edən vahid mərkəzə, milli birliyin və həmrəyliyin təminatçısına çevrilmişdir.[1]

Birinci fəslin üçüncü yarımfəslində dünyanın digər ölkələrində məskunlaşmış Azərbaycan diasporu haqqında da məlumatlar verilmişdir.

Dövlətin diaspor siyasəti Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin də xüsusi diqqət yetirdiyi və qayğı göstərdiyi əsas sahələrdən biri olaraq qalır. Zamanın çağrışlarına uyğun olaraq, inam və uğurla davam etdirilir. Onun müvafiq sərəncamları və iştirakı ilə Dünya azərbaycanlılarının 2006-cı ilin martında ikinci və 2011-ci ilin iyulunda üçüncü qurultayı keçirilmişdir. Qurultaylardakı çıxışlarında İlham Əliyev xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması məsələsini gündəmə gətirmiş, diaspor quruculuğu işinin yeni mərhələsinin başlıca istiqamətləri və qarşıda duran məqsəd və vəzifələri müəyyənləşdirmişdi ki, bu da Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji əsasını təşkil etmişdir. 1991-2011-ci illər ərzində, dünyanın əksər ölkələrində 400-dən çox Azərbaycan icma və birlikləri fəaliyyət göstərirdi. [2] Onların təşkilatlanma prosesi tədqiq etdiyimiz dövrdə də davam edirdi. Dissertasiyada milli diasporumuzun müxtəlif təşkilatlarının fəaliyyəti, yeni təşkilatların yaranması prosesi, bir çox ölkələrdə Azərbaycan diasporunun struktur bölmələri haqqında ətraflı məlumat verilmişdir. Dünyanın müxtəlif ölkələrində keçirilmiş diaspor təşkilatlarının forumları, konqresləri, (Avropa Azərbaycanlıları Konqresinin, MDB-yə üzv dövlətlərdə fəaliyyət göstərən təşkilatların tədbirləri və s.), onların qəbul etdiyi qərarlar dissertasiyada geniş işıqlandırılmışdır.[3] Göstərilir ki, milli adət-ənənələrimizin, maddi-mənəvi və tarixi-mədəni irsimizin təbliği işində Azərbaycan icmalarının fəaliyyəti genişdir. Bu kontekstdə Diasporla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi kompleks tədbirlər xüsusi qeyd edilmişdir. Tədqiqat işində Dövlət Komitəsinin dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin öz

[1] Azərbaycan diasporuna dövlət qayğısı, 2004. Bakı: Adiloğlu, 2009, 284 s.
[2] Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müşahidələr. Çoxcildli. Bakı: Azərnəşr, 2008-2013-cü illər
[3]ARDİDK-nın cari arxivi. Müxtəlif illərə dair hesabatı (2004-2011-ci illər).

tarixi vətənləri ilə əlaqələrinin möhkəmlənməsi istiqamətində apardığı işlərdən də bəhs olunmuşdur.

Dissertasiyada qeyd edilmişdir ki, bu dövrdə bir sıra dövlətlərin mötəbər elmi-təhsil mərkəzlərində Azərbaycan dili ilə bağlı xüsusi bölmələr fəaliyyət göstərmişdi. [1] Azərbaycan dilinin qorunub saxlanılması və gənc nəslə öyrədilməsi sahəsində mühüm işlər həyata keçirilmişdir.

Bu yarımfəsildə göstərilir ki, Azərbaycan diaspor təşkilatları tərəfindən həmin dövrdə kütləvi informasiya vasitələrinin yaradılması, ayrı-ayrı ölkələrin mətbuatında Azərbaycanla bağlı materialların yerləşdirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Araşdırma apardığımız illərdə Rusiya, Ukrayna, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Almaniya, Fransa, İsveç, Böyük Britaniya, ABŞ və digər dövlətlərdə Azərbaycan icma və birlikləri nəzdində 27 qəzet, 10 jurnal və 11 radio studiyası fəaliyyət göstərirdi. Rusiya Federasiyasında «İnter-Azərbaycan» televiziyası ölkəmiz haqqında aydın təsəvvürün yaradılmasında fəal rol oynamışdı. [2] Əksər ölkələrdə Azərbaycan icmalarının öz mətbu orqanları mövcud idi.[3]

Xaricdəki diaspor təşkilatları Dövlət Komitəsi vasitəsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyini silsilə tədbirlər proqramları ilə qeyd etmişdilər.[4]

Dissertasiyanın ikinci fəsli **«Diasporun beynəlxalq əlaqələrə təsiri»** adlanır. Bu fəslin birinci yarımfəslində «Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili» nəzərdən keçirilmişdir. Qeyd olunur ki, müasir qloballaşma şəraitində diasporun (lobbinin) funksiyası daha da genişlənir və onlar müasir beynəlxalq əlaqələrin vacib elementinə çevrilir. Diasporlar təmsil etdikləri dövlətlərin xarici siyasətində mühüm yer almaqdadırlar. Bu amillər dövlətlərarası münasibətlərin inkişafına mühüm təsir göstərməklə yeni güc mərkəzi rolunu oynamağa başlayır. Diasporun rolunun artması həm təmsil etdikləri millətin, həm də dövlətin maraqlarını təmin etmək, onların problemlərini həll etmək ehtiyacından irəli gəlir. Diasporlar mənşə dövləti ilə donor dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında və inkişafında pozitiv stimul kimi çıxış edərək, öz tarixi vətənlərinin mənafeyi naminə geniş təbliğat işi aparmaqla «qızıl açar» rolunu oynayırlar.[5] Hazırda diasporlar öz fəaliyyətinə görə üç kateqoriyaya bölünürlər:

---

[1] ARDİDK-nın cari arxivi. Müxtəlif illərə dair hesabatı (2004-2011-ci illər).
[2] Yenə orada, 2004-cü ilə dair hesabat.
[3] Yenə orada, 2004-cü ilə dair hesabat.
[4] Yenə orada. 2011-ci il dair hesabat.
[5] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001, s.5-6.

**1.** Beynəlxalq proseslərə təsir edən "beynəlxalq diasporlar" (yəhudi, yunan, erməni, Çin,);

**2.** Regional məsələlərin həllində yer alan «regional diasporlar» (Cənub Şərqi Asiyadakı hindlilər, Şimali Afrikada ərəblər);

**3.** Dövlətlərarası münasibətlərin inkişafında rolu olan «yerli diasporlar» (Almaniyada Danimarka ilə sərhəddə yaşayan danimarkalılar, Danimarkada yaşayan isveçrəlilər və s.) [1].

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində diaspor vacib elementlərdən birini təşkil edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında da xaricdə yaşayan soydaşlarımız diqqət mərkəzində saxlanılmışdır. Məsələn, Konstitusiyanın müvafiq maddələrinin (Maddə 1, II. Maddə 73, III.) bəndlərinə görə «Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir» və ya «Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir». [2] Bir faktı da qeyd edək ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Əsasnaməsində vəzifələr və funksiyalar sırasında Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının təmin edilməsi ilə yanaşı, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafı kimi məsələ də nəzərdə tutulmuşdur. [3] Bu da, xaricdə yaşayan soydaşlarımızın mənafeyinin və əsas azadlıqlarının təmin edilməsi məsələsinin Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərdən biri olduğunu göstərir.

İkinci fəslin ikinci yarımfəslində «Azərbaycan diasporunun müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələri» təhlil edilmiş, bir sıra dövlətlərdə yaşayan azərbaycanlıların ictimai-siyasi fəaliyyəti, onların yaşadıqları cəmiyyətlərin sosial-mədəni həyatında iştirakı ilə bağlı məsələlər işıqlandırılmışdır. Dissertasiyada göstərilir ki, Estoniyada Azərbaycan diasporunun fəal üzvlərindən Mərkəzçi Partiyanın nümayəndəsi Eldar Əfəndiyev 2011-ci ildə ölkə parlamentinə üzv seçilmiş, elə həmin ildə Rusiya Federasiyasının Dağıstan Parlamentinə seçkilərdə 4 azərbaycanlı deputat mandatı qazanmışdır. Türkiyə Böyük Millət Məclisində

[1] Полоскова Т. Диаспора: фактор конфликта или сближения? Москва: «Дружба Народов», №3, 2000, 152-169 с.

[2] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.

[3] http://www.mfa.gov.az/

üç azərbaycanlı fəaliyyət göstərirdi. Almaniyadakı «Azərbaycanlıların Koordinasiya Mərkəzi» diaspor təşkilatı kimi Berlin Torpağının Məsləhət Şurasının İctimai Təşkilatlar siyahısına daxil edilmişdi. Türkiyə-Azərbaycan Birliyinin İdarə Heyətinin üzvü Cəlil Maku Həbib 2011-ci il ildə Berlin-Brandenburq İnteqrasiya və Miqrasiya Məsələləri üzrə Məsləhətçi Şuraya üzv seçilmişdir.

Araşdırmalar göstərir ki, xaricdə yaşayan azərbaycanlı gənclər, təhsil alan tələbələr də tədqiq edilən dövrdə Azərbaycanın tanıdılması və ölkəmizin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş aparmışlar. 2011-ci ilin mart ayının 11-12-də Strasburq şəhərində AŞ-nın Mənzil qərargahında «Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclər Təşkilatı»nın (ASAİF) «Azərbaycan 20 - Baxış 2020» adlı beynəlxalq forumu keçirilmişdi. Toplantıya 125 ölkədən 240 nəfərdən çox tələbə və gənc qatılmışdı. [1]

Tədqiqatdan məlum olur ki, Azərbaycan diaspor vasitəsilə yüksək əlaqələr qurduğu ölkələr sırasında Ukrayna xüsusi yer tuturdu. İkitərəfli münasibətlərin inkişafında 1999-cu ildə yaradılmış Ukrayna Azərbaycanlıları Konqresi mühüm rol oynamışdı. Konqres regional təşkilatları özündə birləşdirirdi. Bu təşkilatlar içərisində ən fəalı Donetsk Vilayəti Azərbayvanlıları Konqresidir. Burada yaşayan gənclərimizi bir araya gətirmək məqsədilə 2008-ci ildə «Gənclər Parlamenti» yaradılmış və zamanın çağrışları nəzərə alınaraq bu təşkilat tərəfindən «Konqress Azerbaycana» adlı qəzet nəşr edilməyə başlanılmışdı. [2] [*]

Fransada erməni lobbisinin güclü olması, bu dövlətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemində Ermənistanı dəstəkləməsi Azərbaycan diaspor təmsilçilərini ictimai-siyasi fəaliyyətlərində daha əzmli olmağa sövq etmişdir. Fransanın müxtəlif şəhərlərində bu dövrdə «Azərbaycan Evi», «Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti», «Fransada Azərbaycanın Tələblər Assosiasiyası», «Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası», «Azəri-Fransa Gənclik Assosiasiyası» və başqa təşkilat və mərkəzlər fəaliyyət göstərirdi. Bu təşkilatlar Fransanın dövlət və vətəndaş cəmiyyətləri ilə sıx əməkdaşlıq əlaqələri qurmağa müvəffəq olmuş, bu isə ölkə ictimaiyyətində Azərbaycanla bağlı sterotiplərin dəyişməsində,

---

[1] ARDİDK Cari Arxivi. 2011-ci ilə dair hesabat.
[2] http://www.azkongress.com/
[*] **Qeyd:** «Gənclər Parlamenti» və «Konqres Azərbaycan» qəzeti Yəhya Babanlının təşəbbüsü ilə yaradılmış və nəşr edilmişdir. Y.Babanlı parlamentin ilk sədri və qəzetin baş redaktoru olmuşdur.

Fransa dövlətinin Dağlıq Qarabağ münaqişəsində obyektiv mövqe tutmasında mühüm əhəmiyyət kəsb etmişdir.

Tədqiqatda göstərilir ki, Azərbaycan diasporunun fəal siyasi-ictimai əlaqələr qurduğu dövlətlərdən biri də İsrail dövləti olmuşdur. Bu, hər şeydən əvvəl, Azərbaycanda çox güclü yəhudi icmasının mövcudluğu, ölkəmizdə ənənəvi olaraq yəhudilərlə azərbaycanlılar arasında mehriban münasibətlərin olması və antisemitizm təzahürlərinin heç vaxt olmaması ilə sıx əlaqədar idi.

Dissertasiyanın ikinci fəslinin üçüncü yarımfəslində «Diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki fəaliyyəti» öyrənilmiş və ümümiləşdirilmişdir. «Lobbi» terminınə, «diaspor» və «lobbi» anlayışları arasındakı oxşar və fərqli cəhətlərə aydınlıq gətirilmişdir. Müəllifin fikrincə, diasporu hər hansı bir millətin dünyanın müxtəlif regionlarına səpələnən nümayəndələri təşkil edirsə, lobbi onun siyasiləşmiş qoludur.[1]

Həmin yarımfəsildə göstərilir ki, erməni diasporunun tarixi saxtalaşdırmaq cəhdləri, baş vermiş proseslər və hadisələr barədə dezinformasiya xarakterli lobbi fəaliyyətləri, o cümlədən qondarma «erməni genosidi», Ermənistan-Azərbaycan Dağlıq Qarabağın etnik-siyasi tarixinə dair uydurmalarına qarşı Azərbaycan diasporları qətiyyətli mövqe tutmuş və həqiqəti olduğu kimi dünya ictimaiyyətinə çatdırmağa çalışmışdılar.

Bu yarımfəsildə «31 mart-Azərbaycanlıların soyqırımı», «20 Yanvar faciəsi» və «Xocalı soyqırımı» kimi tarixlərin ildönümlərinin keçirilməsi və yaşadıqları cəmiyyətə çatdırılması sahəsində diaspor təşkilatlarının çoxşaxəli fəaliyyətindən bəhs edilmişdir. Bu vəhşiliklərin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə müxtəlif ölkələrdə həyata keçirilən tədbirlər geniş işıqlandırılmışdır. Heydər Əliyev Fondunun dünyada fəallaşmağa başlayan Azərbaycan diasporunun uğur qazanması sahəsində göstərdiyi dəstək də tədqiqat işində tam şəkildə öz əksini tapmışdır.

Tədqiq etdilən dövrdə Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, dövlət səviyyəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində görülən işlər diasporumuzun milli maraqlarımızın müdafiəsi işində daha fəal iştirakına stimul vermiş və erməni diasporu ilə mübarizədə üstün mövqelər qazanmasına şərait yaratmışdır.

[1] Babanlı Y. Müasir tarixdə lobbi amili Palitra, qəzeti, 2009, 22 dekabr, № 139.

Dissertasiyanın «Nəticə» hissəsində gəldiyimiz elmi-nəzəri qənaətlər ümumiləşdirilərək Azərbaycan diasporunun institutsional inkişafına dair təkliflər və tövsiyələr verilmişdir. Bununla, apardığımız araşdırmalar aşağıdakı nəticələrə gəlməyə əsas verir:

**1.** XX əsrin sonu - XXI əsrin əvvəllərində dünyada baş verən köklü dəyişikliklər, inteqrasiya və qloballaşma prosesləri, transmilli şəbəkələrin inkişafı milli diasporların dünyadakı yerinə və roluna yenidən baxmağa, onun sosial, mədəni, iqtisadi, siyasi potensialına diqqət yetirməyə sövq etdi. Hal-hazırda diaspor öz ənənəvi funksiyasını dəyişərək sosial-mədəni fenomendə daha çox iqtisadi-siyasi element kimi qəbul olunur. Bu potensialdan yeni əlaqələndirici simvol kimi beynəlxalq aləmdə dövlətlərarası münasibətlərdə maksimum istifadə etməyə çalışırlar. Tədqiqat göstərdi ki, digər postsovet respublikaları kimi, 90-cı illərin əvvəlləri Azərbaycan tarixinə də həm milli oyanış və dirçəliş, həm də dövlət müstəqilliyinin bərpası dövrü kimi daxil olmuşdur. Bu prosesdə Azərbaycan diasporu da keyfiyyət və kəmiyyət dəyişikliyi yaşamış, yeniləşməyə qədəm qoymuşdu. Azərbaycan diasporunun dövləti hərtərəfli tanıtmağa və müdafiə etməyə güclü potensialının olması onun suverenliyinin əsas atributlarından birinə çevrilməklə inkişafına yeni nəfəs verdi. Müstəqil Azərbaycan Respublikasının ayrı-ayrı dövlətlərlə münasibətlərin inkişafında, mövcud əlaqələrin möhkəmləndirilməsində və müvafiq əməkdaşlığın qurulmasında milli diasporun rolu artdı.

**2.** Diaspor, lobbi fəaliyyətinin tarixinə diqqət yetirilmiş və onların funksiyalarının ətraflı şəkildə izahı verilmişdir. Bunlar, elmi mülahizəmizə görə aşağıdakılardan ibarətdir: Azərbaycan diasporunun təşəkkülü və formalaşması tədqiq olunmuş, diaspor anlayışına və tarixinə ümumi baxış öyrənilmiş, 1991-2011-ci illərdə Azərbaycan icmalarının xaricdə yaranması və səciyyəvi xüsusiyyətləri aşkara çıxarılmış, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra diasporun mövcud potensialı və müasir inkişaf səviyyəsi araşdırılmış, eləcə də diasporun beynəlxalq əlaqələrə təsiri müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının xarici siyasətində diaspor amili nəzərdən keçirilmişdir. Azərbaycan diasporunun müxtəlif dövlətlərin siyasi dairələri ilə əlaqələrinə diqqət yetirilmişdir. Diaspordan lobbiçiliyə doğru: Azərbaycan diasporunun ölkəmizin təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində diaspor təşkilatlarının fəaliyyətinə toxunulmuşdur. Tədqiq edilən mövzuda, klassik yəhudi, yunan, erməni, çin diasporları ilə bağlı fərqli cəhətlər də nəzərə çatdırılmışdır. Tədqiqatdan irəli gələn nəticəyə görə, hər bir dövlətin yürütdüyü siyasət ölkədən kənarda olan diasporu qarşıdurmaya

yox, qarşılıqlı yaxınlaşmaya sövq etməkdir. Eyni zamanda, həssas məqama toxunaraq bildirilir ki, hər bir dövlət xaricdə yaşayan həmvətənlərinin hüquqlarını müdafiə etməyə borcludur. Diasporçunun, lobbiçinin və onların missioner təşkilatlarının əsas məqsəd və vəzifəsi yaşadıqları, mənsub olduqları ölkənin qanunlarına riayət etmək, həmin dövlətlərin münasibətlərinin inkişafına töhfə verməkdir.

**3.** Planetdə geosiyasi hadisələrin gərgin xarakter aldığı bir vaxtda sülhün və əmin-amanlığın əldə olunması, onun qorunub saxlanması istiqamətində hər bir dövlətin xarici siyasətinin əsas istiqamətlərindən birini diaspor və lobbi amili təşkil etməlidir. Hazırda xalqların miqrasiyasının intensivləşməsi etnik birliklərin və milli icmaların yaranmasna təkan verir. Qeyd etdiyimiz kimi bu da xalqların bir-biri ilə əlaqələrinin yaranmasına və yeni cəmiyyətlərin formalaşmasına gətirib çıxarır. Azərbaycan tarixşünaslığı üçün yeni olan və vacib əhəmiyyət kəsb edən, praktikada köç, miqrasiya, mühacirət, qovulma, sürgün, icma, birlik, ictimai təşkilatlar, lobbiçilik və digər anlayışlarla eyniləşdirilən «diaspor» termininə tədqiqatımızda məna və məzmun baxımından aydınlıq gətirilmiş, bu sahənin görkəmli tədqiqatçılarının fikirlərinə söykənərək «diaspor» anlayışının mahiyyəti izah edilmişdir. Tədqiqat işində ümumi məzmunla bağlı «diaspor» anlayışı xüsusi incəliklə araşdırılmışdır ki, bunlar da aşağıdakılardır:

**a)** tarixi vətəndən könüllü və ya məcburi, bir və ya bir neçə xarici ölkələrə mühacirət etmək-səpələnmək;

**b)** bir sıra səbəblərlə, əsasən iş tapmaq məqsədilə və ya vətənində müxtəlif təqiblərə məruz qaldığına görə öz tarixi vətənlərini tərk edərək, digər ərazilərə köçmək-yayılmaq**;**

**c)** etnik-tarixi vətənlərinin hərtərəfli sosial-mədəni, iqtisadi-siyasi və s. inkişafı üçün birgə fəaliyyət göstərmək;

**d)** məskunlaşdıqları ölkələrin sosial, mədəni, iqtisadi, siyasi və s. mühitinə adaptasiya;

**e)** xarici ölkələrdə yaşayan həmvətənləri ilə etnik bağları qoruyub saxlamaq, qarşılıqlı münasibət yaratmaq və əlaqələr qurmaq.

**4.** Diaspor titul dövlətin (gəldiyi dövlətin) hüdudlarından kənarda yaşayan və müəyyən cəhətlərə (tarixi vətənlə əlaqələr, etnik eyniləşmə, milli dəyərləri qorumaq, tarixi vətənin maraqlarını təmin etmək üçün təşkilati imkanlara malik olmaq və s.) malik etnik qruplar əsasında yaranan etno-mədəni və etno-siyasi fenomen kimi nəzərdən keçirilmişdir. Dövlət diaspor siyasətini həyata keçirərkən müxtəlif ölkələrdə fəaliyyət göstərən milli diaspor təşkilatlarının sosial, mədəni, iqtisadi, siyasi potensialından öz milli

maraqlarını qorumaq və dövlətlərarası münasibətləri inkişaf etdirmək üçün istifadə etməlidir. Tədqiqat işində diasporun təşəkkülü və formalaşmasında mənsub olduğu dövlətin yeritdiyi siyasətin rolundan danışarkən diasporun yaranması, səciyyəvi xüsusiyyətləri, inkişaf dinamikası, mənşəyi, dövlətin siyasətinə uyğun fəaliyyəti istiqamətində təşkilatlanma vəziyyəti və digər məsələlər elmi dəqiqliklə, statistik göstəricilərlə izah edilmişdir. Bir sıra xalqların diaspor fəaliyyətinin spesifik xüsusiyyətlərinin xalqlararası və dövlətlərarası münasibətlərin inkişafına təsirindən də bəhs edilmişdir. Diaspor fəaliyyətində effektiv nəticə əldə etmək üçün «3Y» - yayılmaq - yurd salmaq - yüksəlmək prinsipi üzrə hərəkət edilməsi qənaətinə gəlinmişdir.

**5.** Diasporun yad sosial-mədəni mühitdə assimilyasiya təhlükəsinin qarşısını almaq üçün onların institutsional formalaşması məsələsinə xüsusi diqqət yetirilmişdir. Bu məqsədə nail olmaqdan ötrü diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya edilməsi sahəsində dövlətin müvafiq strukturlarının, xüsusilə, ARDİDK-nin imkanlarının genişləndirilməsi məsləhət görülür. Tədqiqatda diasporun münaqişə yaratmaqda katalizator rolu oynamaq kimi saxta fəaliyyəti də əks olunmuşdur. Buna misal olaraq, erməni diasporunun forması və məzmunu, saxtakarlığı tarixi faktlarla izah edilmişdir. Tədqiqatın məzmunundan göründüyü kimi, hər bir dövlət qarşısına diasporun etno-mədəni fenomen kimi saxlanılması məqsədini qoyur. Siyasi vəzifə kimi isə ondan istifadə edilməli, bu diasporun mənşə ölkəsi ilə əlaqələrinin möhkəmləndirilməsi strategiyasını formalaşmasına kömək göstərməlidir. Dövlətin diasporla iş üzrə rəsmi proqram və konsepsiyası olmalıdır. Diaspor təşkilatlarla birgə fəaliyyət planı işlənməli və kordinasiyası təşkil edilməlidir. Tədqiqat işində xalq-dövlət-diaspor münasibətlərinin genişlənməsinin diaspor siyasətində əsas götürülmüş, bir sıra faktorlarla əlaqələndirilmişdir ki, bunlar da aşağıdakılardır:

**1)** Milli birlik, etnik tarix, maddi-mənəvi mədəniyyət (identiklik), dil və din amili;
**2)** Milli dövlətçilik və suverenlik, azadlıq amili;
**3)** Milli zülmə və avtoritarizmə qarşı müqavimət, eləcə də, demokratiya və insan hüquqları uğrunda mübarizə amili;
**4)** Milli faciələrin məhz diasporda öz faciələri kimi qarşılanıb həmrəyliyin və birliyin açıq şəkildə ifadə olunması amili;
**5)** Milli dövlətin himayədarlığına daim ehtiyac amili.

Dissertasiya işində Heydər Əliyevin Azərbaycan Respublikası Prezidenti seçildikdən sonra çoxsaylı xarici səfərlərində dünyanın müxtəlif ölkələrindəki Azərbaycanın milli icmaları, diaspor nümayəndələri ilə görüşü,

onları tarixi vətənləri və milli mənafeləri ətrafında sıx birliyə və həmrəyliyə çağırışları, hər il «31 dekabr - Dünya azərbaycanlılarının birlik və həmrəylik günü» onlara müraciət ənənəsinin əsasını qoyduğu da qeyd edilmişdir. Bunlarla yanaşı, tədqiqat işində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda, Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunun qəbul edilməsi və sair tədbirlərin əhəmiyyəti barədə də geniş bəhs olunmuşdur. «Azərbaycan evləri»nin, «Diaspor fondu»nun və «Lobbi institutu»nun yaradılması tövsiyə olunmuşdur.

**6.** Erməni-türk, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin yaranma mənbəyi, həmin tərəflərin diaspor təşkilatlarının qeyd olunan məsələlərdə mövqeyi və onların həllinə təsiri tədqiqat işində zəngin faktlarla izah edilmişdir. Erməni diasporunun əsassız torpaq iddiaları, «erməni genosidi» uydurmaları, bunların dövlətlərarası münasibətləri gərginləşdirərək beynəlxalq əlaqələrə mənfi təsiri elmi dəlillərlə sübuta yetirilmişdir. Diasporun beynəlxalq təşkilatların, BMT-nin, İKT-nin, ATƏT-in və Aİ-nın yeritdiyi siyasətə təsiri məsələlərindən də tədqiqatda söz açılır və erməni-türk, ərəb-yəhudi, erməni-Azərbaycan diasporlarının beynəlxalq təşkilatların siyasətinə təsirindən danışılır. Tədqiqat nəticəsində Azərbaycanın milli maraqlarının həyata keçirilməsində diasporun rolunun öyrənilməsi sahəsində qarşıda bir sıra vəzifələrin durduğu da üzə çıxarılmışdır. Buraya ilk növbədə:

- Azərbaycan dövlətinin, onun ayrı-ayrı strukturlarının diaspor təşkilatları ilə konstruktiv əlaqələrinin yaradılması üçün əlverişli üsullarının tapılması;
- Azərbaycan dövlətinin və diasporunun qarşılıqlı münasibətlərinin inkişafını özündə ehtiva edən yeni siyasi xəttin əsas konturlarının müəyyənləşdirilməsi;
- Diaspor təşkilatlarının dövlətimizin xarici siyasət strategiyasının həyata keçirilməsində yerinin və rolunun əsaslandırılması;
- Müxtəlif dövlətlərin (diasporun olduğu dövlətlərin) diasporlarla qarşılıqlı əlaqələrinin tarixi təcrübəsinin öyrənilməsi və bu təcrübədən diaspor siyasətində istifadə edilməsi;
- Diaspor nümayəndələrinin Azərbaycanın dövlət-hökumət komissiyaları, qeyri-hökumət qurumlarının müxtəlif ölkələrdəki fəaliyyətinə cəlb edilməsi mexanizmi və formalarının toplanması;
- Azərbaycan diasporunun yaşadıqları ölkələrin həyatında iştirakının genişləndirilməsi, onun milli identifikliyinin, etnik dəyərlərə sadiqliyinin

qorunması, assimilyasiyadan mühafizə edilməsi üçün optimal üsulun yaradılması;

- Dövlət-diaspor münasibətlərinin tədqiqi sahəsində son dövrlərdə Azərbaycanda aparılmış tədqiqatlarla yanaşı, göstərilən problemlərə dair geniş səpkidə digər elm sahələrinin mütəxəssisləri də cəlb edilməklə araşdırmaların aparılması.

Xarici dövlətlərin diasporla qarşılıqlı əlaqələrinin əsas istiqamətlərinin təhlili bu sahədə son dövrlərdə bir sıra meyllərin olduğunu göstərir. Buraya birinci növbədə, diaspora münasibətdə repartasiya modelindən imtina edilməsini göstərmək olar. Rusiya istisna olmaqla, əksər dövlətlər milli diasporun yaşadıqları ölkələrdə möhkəmlənməsinə, ondan öz maraqlarının həyata keçirilməsi amili kimi istifadə edilməsinə üstünlük verirlər. Diasporlar vasitəsilə dövlətlər onun üçün mühüm geo-siyasi və geo-strateji əhəmiyyət daşıyan ölkələrdə və regionlarda öz sosial, mədəni, iqtisadi, siyasi iştiraklarını təmin etməyə can atırlar. İsrail, Çin, Yaponiya, Yunanıstan, Macarıstan, Braziliya kimi ölkələr öz diasporlarının potensialından dövlətlərarası münasibətlərin inkişafında və ondan körpü kimi istifadə edilməsində ciddi təcrübə qazanmışlar. Azərbaycan dövləti də bu təcrübədən yararlanmaq üçün onu dərindən təhlil etməli, öyrənməli və tətbiq etməlidir. Diaspor siyasətinin əsas şərtlərindən biri də diaspor-dövlət münasibətlərinin legitimləşdirilməsidir. Bu da ilk növbədə dövlətin diasporlara işin əsas prinsiplərinin müəyyənləşdirilməsini tələb edir**.** Müasir dövrdə xalqlar və dövlətlərin ictimai həyatın müxtəlif sahələri üzrə münasibətləri artdıqca belə bir fikir formalaşdı ki, dünyanın inkişafı vahid tarixi prosesi ifadə edir. Onun bir-birilə əlaqəli iki tərəfi vardır: birinci, konkret milli inkişafa; ikinci bütünlükdə bəşəriyyətin inkişafına xidmət edir. Məhz qloballaşma prosesdə bu ünsürlərin yaşadılması və gələcək nəslə ötürülməsi diasporda təzahür edir.

Bir sözlə, yeni dünya nizamında konkret zamanla məhdudlaşmayan, daimi fəallıq tələb edən və qloballaşmanın vacib çağırışlarından biri hesab olunan diaspor amili beynəlxalq aktora çevrilməklə, diplomatiyanın əsas elementi kimi dövlətlərarası münasibətlərin inkişafında mühüm əhəmiyyətə malikdir. Bütün bunlar nəzərə alınaraq, diaspor diqqətdə saxlanılması vacib olan müasir dövrün tələbləri sırasına daxil edilməlidir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. **Xalqların köçü və ya miqrasiya.** H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Elmi Əsərlər Məcmuəsi. Bakı-2010, №2 (15), s.14-21
2. **Dövlətlərarası münasibətlərin inkişafında diaspor amili.** H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Elmi Əsərlər Məcmuəsi. Bakı-2011, №1 (16), s.16-19
3. **Türkiyədə Azərbaycan diasporunun yaranması.** H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Elmi Əsərlər Məcmuəsi. Bakı-2011, №2 (17), s. 9-13
4. **Diasporçuluq, Lobbiçilik və onların mahiyyəti.** «Qarapapaqlar». Marneulu-2012, № 7 (59), s. 14-20
5. **XXI əsrdə aktuallıq kəsb edən sosial-etnik anlayışlara baxış.** «Qarapapaqlar». Marneuli-2012. № 10 (62), s.21-27.
6. **Diaspor fəaliyyətində lobbiçilik faktoru.** Odlar Yurdu Universitetinin «Elmi və pedaqoji xəbərləri». Bakı-2012, № 34, s. 176-181
7. **Diaspor: tarix və reallıqlar.** Bakı Dövlət Universitetinin «Tarix və onun problemləri». Bakı-2013 (Xüsusi buraxılış). s. 412-416
8. **Diaspor potensialının yaranmasıda miqrasiya proseslərinin rolu.** AMEA-nın «Məruzələr» jurnalı. Bakı-2013, №1, s. 104-111
9. **Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası və xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesi.** Odlar Yurdu Universitetinin «Elmi və pedaqoji xəbərləri». (Heydər Əliyevin 90 illiyinə həsr olunmuş «Azərbaycan 2020: Gələcəyə Baxış» Beynəlxalq Elmi-Praktiki Konfransın Materialları) Bakı-2013, № 37, s. 127-132
10. **Влияние восстановления государственной независимости Азербайджанской Республики на формирование и развитие диаспоры.** «Gileya» (scientific bulletin), Kiyev-2013, № 42, s.124-126
11. **Azərbaycan Respublikasının xarici siyasətində milli diasporun yeri və rolu.** «Pedaqoji Universitetin Xəbərləri». Bakı-2014, № 3, s. 145-148

**Я.М.Бабанлы**

**РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В РАЗВИТИИ МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИИ (1991-2011)**

**РЕЗЮМЕ**

Процесс глобализации во всём мире бросает вызовы в планетарном масштабе мировому сообществу. Исследование диаспоральных процессов в настоящее время является одной из актуальных проблем не только в диаспорологии, но и в других гуманитарных исследованиях. В представленной нами диссертации дан анализ месту диаспоры в мировом сообществе, а также её роли в развитии межгосударственных отношений.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении указана актуальность темы, хронологические рамки исследования, степень изученности вопроса, источниковедческая база исследования, объект и предмет, цели и задачи исследования, методологические основы исследования, его научная новизна, теоретическое и практическое значение, апробация и структура диссертации. Первая глава диссертации под названием «**Зарождение и формирование азербайджанской диаспоры**» состоит из трех подглав. В этой главе детально изучается феномен диаспоры, её дефиниция, история зарождения, анализируется социально-исторические условия, в результате которых возникли азербайджанские общины, а также сам процесс формирования азербайджанской диаспоры. Исследуется имеющийся потенциал диаспоры после восстановления государственной независимости Азербайджанской Республики и уровень её развития на современном этапе. Во второй главе под названием «**Влияние диаспоры на международные отношения**», состоящей из трёх подглав, дан анализ роли диаспоры во внешней политике Азербайджанской Республики, рассмотрены связи национальной диаспоры с политическими кругами различных стран, а также деятельность диаспоры в пропагандировании нашей страны, доведении до мировой общественности верной позиции касательно Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта.

Диссертация завершается заключением, которое обобщает научно-теоретические постулаты, выдвигает предложения и рекомендации по институциональному развитию азербайджанской диаспоры. В конце диссертации приводится список использованной литературы.

**Y.M.Babanli**

**THE ROLE OF THE AZERBAYJANI DIASPORA IN THE DEVELOPMENT OF INTERSTATE RELATIONS (1991-2011)**

**SUMMARY**

Global process in the whole world challenges the world community on a world scale. Studying of diaspora processes is currently not one of the actual problems in diasporology, but other social researches. In the given dissertation the place of diaspora in the world community and its role in the development of interstate relations was analyzed.

Dissertation consists of introduction, two chapters, the conclusion and the list of bibliography cited.

The introduction consists of the topicality, the chronological frame of the research, the level of scrutiny of the topic, the resource base, the aim and objectives of the research, the methodological basis of the dissertation, the scientific novelty, the theoretical and practical value of the research, the approbation of the dissertation and its structure. The first chapter of dissertation called **«The origin and formation of the Azerbaijani diaspora»** consists of three subchapters. In this chapter the phenomenon of diaspora, its definition and the history of its origin is being studied in details, socio-historical conditions of the formation of Azerbaijani communities abroad and the formation of Azerbaijani diaspora itself has been analyzed. The potential of the diaspora after the restoration of the state independence of the Republic of Azerbaijan and the modern level of its development is being investigated. In the second chapter called **«The Influence of diaspora on international relations»** and consisted of three subchapters the role of diaspora in a foreign policy of the Republic of Azerbaijan was analyzed, the relationships of the national diaspora with political circles of various countries, as well as activity of diaspora in promotion of our country, informing the world community on the truth about the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict has been researched.

There is a conclusion at the end of dissertation, which summarizes scientific-theoretical postulates, raises hypothesises and recommendations on institutional development of Azerbaijani diaspora. At the end the dissertation is provided with the list of bibliography cited.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ЯХЬЯ МАММАД оглы БАБАНЛЫ**

# РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В РАЗВИТИИ МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИИ (1991-2011)

**Специальность: 5503.02 - «Отечественная история»**

**диссертации на соискание ученой степени доктора философии по истории**

# А В Т О Р Е Ф Е Р А Т

**Б А К У - 2015**